# "AZƏRİNİN VƏ RUSUN BÖYÜK FİLOSOFU"

**hamı onu beləcə tanıyırdı...**



**Heydər Camal** 1947-ci il 6 noyabrda azərbaycanlı və rusdan ibarət qarışıq ailədə anadan olub. Atası tanınmış rəssam Cahid Şamil oğlu Camaldır. Rusiyanın əməkdar rəssamı olan Cahid Camal Qarabağda, Ağdamın Gülablı kəndində anadan olmuşdu. Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirəndən sonra, Moskvada Surikov adına İncəsənət institutunda öz təhsilini davam etdirmişdi. İnstitutu başa vurandan sonra, Stroqanov məktəbində dərs demiş, əvvəlcə dosent, sonra isə rəsm və rəngkarlıq kafedrasının professoru olmuşdu... Heydər Camalın ata babası bir müddət Zaqafqaziyada banditizmə qarşı mübarizə şöbəsinə rəhbərlik etmiş, İkinci dünya müharibəsi illərində Qarabağın hərbi komissarı, sonra isə Azərbaycan SSR Ali Məhkəməsinin sədri vəzifələrində çalışmışdır...

Heydər Camalın anası - məşhur sirk ustası, atlar təlimçisi İrina Şapovalovadır. O həm də ən yırtıcı heyvanları belə ram eləyirdi, Durovun teatrında saxladığı "Mersi" ayamalı yorğa indi də tamaşaçıların yadındadır... Heydər Camalın ana babası, yəni İrina Şapovalovanın atası yüksək vəzifəli partiya və dövlət xadimi, həm də klassik alman fəlsəfəsi üzrə adlı-sanlı professor idi. Nəvəsi Heydər Camala da fəlsəfəni sevdirmiş, öz zəngin kitabxanasını da ona vəsiyyət eləmişdi... Heydər Camal həddi-buluğa çatandan bəri özünü başdan-ayağa xas azərbaycanlı sayıb, heç kəsə və heç kimə cığırdaş olmayıb... Ömrü boyu yalnız özünə gərəkli saydığı kitablar oxuyub və bu minvalla Şərq fəlsəfəsi, İslam əqidəsi onunçun özünü ifadəyə çevrilmiş olub...

***Heydər Camal 1965-ci ildə orta məktəbi bitirəndən sonra Moskva Universiteti nəzdindəki Şərq dilləri institutuna qəbul olunur, çox yox, bircə ildən sonra, "burjua millətçiliyi" üstündə institutdan xaric olunur. Zavodda tokar işləyir, eyni zamanda əcnəbi dillərdən müəlliklik eləyir. Bir az keçəndən sonra, yarımçıq ali təhsil görən H.Camalı "Tibb" nəşriyyatına korrektor vəzifəsinə düzəldirlər. O nəşriyyatda H.Camal öz həmfikirlərini tapır, filosof A.Duqinlə dostlaşır... A.Duqin sonradan geniş şöhrət qazanmış "Avrasiya" ideyasını ortaya atmaqla yadda qaldı. Bəlkə də H.Camal bu qlobal ideyanın nə səbəbdənsə adı çəkilməyən müəlliflərindən biridir.***

Tanınmış yazıçı Mamleevlə yaxınlıq da elə həmin vaxta düşür. Ayrı-ayrı illərdə müstəqil birliklər yaradır, qəzet və jurnallar çap etdirir, ölkə daxilində və xaricdə bir sıra beynəlxalq konfransların iştirakçısı olur. Rusiya TV-lərində, o cümlədən Dövlət kanalında "İndilər", "Mədəniyyət" kanalında "Qur`anın bütün surələri", RTR-də "Min bir gün" kimi verilişlər aparır... 1998-ci ildə Moskva Dövlət Universitetinin fəlsəfə fakultəsində - "Gələnək və gerçəklik" mövzusunda mühazirə oxuyur...

...Heydər Camal 2016-cı il dekabrın 5-nə keçən gecə Alma-Atada uzun çəkən müalicədən sonra vəfat etdi.

*"Heydər Alma-Atada iki aydan çox xərçənglə əlbəyaxa oldu. Çox əziyyət çəkdi, dəhşətli ağrılara dözdü... Qazaxıstan təbibləri onun ağrılarını yüngülləşdirmək üçün əllərindən gələni əsirgəmədilər, fəqət köməyi olmadı. Heydər bilirdi ki, bunun axırı ölümdür, odur ki, əvvəlcədən dəfn olunacaq məkan kimi türk torpağını, öz müsəlman bacı-qardaşlarının uyuduğu torpağı seçmişdi. Və əvvəlcədən vəsiyyət eləmişdi ki, harda ölərəmsə, məni orda basdırarsınız. Heydərin ailəsi də buna razılıq verdi. Yəqin ki, o böyük filosofun və mübariz ruhlu insanın ruhu haqq dünyasında rahatlıq tapacaqdır...*

***Maksim Şevçenko***
***tanınmış telejurnalist***